AZƏRBAYCAN UNİVERSİTETİ

# Gənc tədqiqatçıların III respublika elmi-praktik konfransının materialları

13 mart 2020-ci il



Azərbaycan Universiteti

# GƏNC TƏDQİQATÇILARIN III RESPUBLİKA ELMİ-PRAKTİK KONFRANSININ MATERİALLARI

**13 mart 2020-ci il**

Bakı | AZƏRBAYCAN

# TƏŞKİLAT KOMİTƏSİ

**SƏDR**

**Səadət Əliyeva**

Rektor, Azərbaycan Universiteti

**Üzvlər**

Yusif Qasımov

Nüşabə Quliyeva

Lətifə Ağamalıyeva

Asif Paşayev

Səfər Məmmədov

Ülviyyə Rəhimova

Qabil Əliyev

Nəriman Böyükkişi

Samirə Məmmədova

Tünzalə Verdiyeva

**Katib**

Afiq Nadirov

**Ədəbiyyat**

1. Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları. (portret-oçerklər və məqalələr), Bakı, "Elm və təhsil", 2018, 248 səh.
2. Dilqəm Əhməd, Bir ildən yüz ilə(yeni fotolar və sənədlər).Bakı, TEAS Press Nəşriyyat evi, 2018, 228 səh.
3. Dilqəm Əhməd, Fərqlilər, Bakı,TEAS Press Nəşriyyat evi, 2015, 216 səh.
4. Dilqəm Əhməd, Mühacirlərin dönüşü, Bakı, TEAS Press Nəşriyyat evi, 2017, 140 səh.
5. Əhməd Ağaoğlu. İran və inqilabı. Bakı,Azərnəşr,2009, 152 səh.
6. Əhməd bəy Ağaoğlu. Xatirələr. Bakı,TEAS Press Nəşriyyat evi, 2019,216 səh.
7. Xaləddin İbrahimli. Azərbaycan mühacirəti tarixi. Bakı, TEAS Press Nəşriyyat evi, 2015, 264 səh.

## 2000-ci İLLƏR AZƏRBAYCAN NƏSRİNDƏ QƏHRƏMANIN PSİXOLOJİ KİMLİYİNİN AÇILMASI

**Ələkbərli Suğra**
Azərbaycan Dillər Universiteti
suqra.alakbarli@mail.ru

Müstəqilliyin ilk illərində yazılmış nəsr nümunələri istər mövzu-məzmun, istər qaldırılan problem, istərsə də bədii sənətkarlıq baxımından bir-birindən fərqlənsələr də, onlar ümumi bir qayə altında birləşirlər. Bu dövrün demək olar ki, bütün ədəbiyyat nümunələrindən keçən, düşdüyü vəziyyətdən çıxış yolları axtaran "düşünən qəhrəman" axtarışıdır. Bu axtarışı biz psixoloji nöqteyi-nəzərdən izləməyə çalışacağıq.

İstər şeirdə, istər dramaturgiyada, istərsə də nəsrdə qəhrəmanın düşüncələrinin ifadəsi onun psixoloji kimliyinin açılmasına dəlalət edir. Bədii ədəbiyyatda psixologizmin bu məqamına diqqət çəkən alimlər obrazların nitqinin xüsusiyyətləri, formaları, hətta cümlə quruluşları ilə onun psixoloji portretinin qurulmasına diqqət yetirirlər.

Əhməd Sami Elaydi "Müstəqillik dövrü Azərbaycan romanı" monoqrafiyasında müasir Azərbaycan nəsrinin, xüsusən romanlarımızın janr özünəməxsusluğu, dil-üslub fərdiliyi ilə bağlı maraqlı məqamlara toxunur. O qeyd edir ki, İsa Hüseynov, Əzizə Cəfərzadə, Anar, Əkrəm Əylisli, Afaq Məsud və başqa müəlliflərin əsərlərini araşdırarkən təsvir olunan hadisə və əhvalatları unudaraq dilin sehrinə düşürsən. Burada dil, bədii təsvir və ifadə vasitələri təkcə əsərin süjetini sona çatdırmaq üçün vasitə rolunda çıxış etmir, həm də obrazların psixoloji kimliyini qabarıq şəkildə ortaya çıxaran prinsipə çevrilir [1, s.71].

Demək psixologizmin ifadə olunmasında əsərin dili obrazların münasibətlərindən heç də az əhəmiyyət kəsb etməyən vacib prinsip rolunu öz üzərinə götürür. Monoloqlar, dialoqlarla yanaşı müəllifin öz sözləri də psixoloji məqamları üzə çıxarır. Nəsr əsərində müşahidə olunan psixologizm öz bədii təsdiqini monoloqlar və dialoqlarla yanaşı, həm də müəllif təhkiyəsində tapır.

Misal üçün Səfər Alışarlının "Maestro" romanındakı nümunəyə baxaq: "Sonra bu qaradinməz, hirsli, saçları pırtaşıq adama uşaq təzədən, sanki yuxudan ayılmış kimi, bir az da yad baxışla baxanda, onun nəinki bir vaxtlar ağappaq kostyumda, əlində müxtəlif rəngli işıq parçalarını

əks edən gümüşü saksofon, televiziya ekranlarında görünməsinə, ümumiyyətlə, musiqiyə, incəsənətə dəxli olduğuna şübhə eləməyə bilmirdi. Uşaq bircə onu bilirdi ki, qardaşının yolu əzablı yoldur, onun öz yolu isə bambaşqadır. O, uşaqlığa mənsub sadəlövh xoşbəxtliklə inanırdı ki, qiymət üçün yox, bilik naminə oxumaqla öz yolunu rahat gedə bilər. Ancaq bütün bunlara baxmayaraq, uşaq qardaşı üçün həyatın niyə belə ağır keçməsini başa düşə bilmirdi, axı o da az və pis oxumamışdı. Deməli, nə sirr idisə, oxumaqda deyildi" [2, s.10].

Gördüyümüz nümunədə dilin gözəlliyi və rəvanlığı ilə yanaşı, onun obrazın psixologiyasının açılmasında oynadığı əvəzsiz missiya duyulmaqdadır. Bədii əsərdə psixologizmləri müəyyən etmək üçün hər şeydən əvvəl onun təhkiyədə işlənən əsas vasitələrinə diqqət yetirmək vacibdir. Belə ki, psixologizm özünü verbal və qeyri-verbal kommunikasiyadadaha aydıngöstərir.

Ünsiyyət zamanı nitqin rolunun əhəmiyyətli olduğunun əsas göstəricisi verbal kommunikasiyadır. Ətraf mühit, keçmiş və gələcək haqqında hər cür məlumatı yazılı və şifahi nitq vasitəsilə alırıq. Psixologizm nəsrdə həmişə obrazın fikirləri, xarakteri və baş verən konflikt fonunda meydana gəlir.

Bədii əsərlərdə psixologizm iki səviyyədə təzahür edir. Bunlardan biri bədii psixologizmdir ki, o bədii obrazı psixoloji prizmadan yaratmağa və insanın daxili aləminin əsərdə aktuallaşdırılmasına xidmət edir.

İkinci məqam isə yaradılan obrazın fizioloji sferasının daha geniş planda ifadəsindən ibarətdir ki, burada təkcə daxili aləm deyil, obrazların davranışları, xarici görünüşü, vərdişləri də öz əksini tapır, bununla da obraz daha kompleks şəkildə ortaya çıxır.

Aqil Abbasın Qarabağ müharibəsinin dəhşətlərindən bəhs edən və hədsiz dərəcədə gərgin psixoloji vəziyyətlərlə zəngin olan "Dolu" romanında biz təkcə obrazın daxili aləmini deyil, həmçinin onun davranışlarını da müəllif təhkiyəsində daha əhatəli şəkildə duya, hiss edə bilirik. Bu əsər haqqında araşdırmalar apardığımız zaman ədəbi tənqidçilərin əsərə müxtəlif baxış bucaqlarından yanaşdığını gördük. Təəssüf doğuran məqamlardan biri ondan ibarət idi ki, ən gərgin mənəvi-psixoloji məqamlardan biri hesab edilən müharibə gerçəkləri və onun insan psixologiyasına adekvat təsirləri haqqında bu əsərlə bağlı elmi araşdırmaya rast gəlmədik.

Müəllif romanda müharibə şəraitində insanların hər an yaşadığı psixoloji faciəni ustalıqla açmışdır. Müharibə şəraitində insanların psixologiyası, özlərini necə aparması, hansı şəkildə yaşaması bütün detalları ilə romanda əks olunmuşdur.

Romandan bir nümunəyə diqqət yetirək: "Döyüşlərin birində əllərinə bir erməni qızı düşmüşdü. İntiqam eşqindən gözlərini qan tutmuş uşaqlar qızı zorlamaq istəmişdilər. Amma tir-tir titrəyən qızın insanın iliyinə işləyən yalvarışlı baxışları hələ insanlığını tam itirmədiyindən onun qanını dondurmuşdu. Yaralı ac qurdların əlinə düşmüş çarəsiz, ümidi Tanrıdan üzülmüş bu qızın zorlanmasına biganə qala bilməmişdi. Dəxli yox idi ki, bəlkə də günün birində bu qız onu vuracaqdı, amma indi onun qarşısında sabah onu vuracaq bir düşməni görmürdü. Tanrının ondan imdad diləyən yaratdığı bir varlığı görürdü. Bəlkə də uşaqlar bu qızı güllələsəydilər fərqinə varmazdı, amma zorlanmasını qəbul edə bilməmişdi. Və qızcığazı kolluğa basmaq istəyən uşaqları saxlamışdı:

- Dəyməyin! Araya mübahisə düşmüşdü.
- Bəs onlar bizimkiləri zorlaya bilər?!
- Biz erməni deyilik!" [3, s.4]

Təsvir olunan epizodda müharibənin hansı vəziyyəti doğurduğunu görürük, həmçinin burada gərgin psixoloji sarsıntının içində düşünən və öz düşüncəsini hisslərinə qurban verməyən bir qəhrəmanın obrazı təsvir olunmuşdur.

Məhz bu düşünən qəhrəmanlar düşdüyü gərgin vəziyyətlərdə çıxış yollarını aramaq, vəziyyətin qurbanlarına çevrilməmək üçün müqavimət göstərirlər. Məhz bu dövr nəsr əsərlərindəki qəhrəmanlar düşdükləri gərgin psixoloji vəziyyətlərə baxmayaraq, qeyri-adi xarakterləri, əvvəlki dövrün qəhrəmanları ilə müqayisədə qeyri-adekvat davranışları, düşüncələri ilə də fərqlənirlər.

**Açar sözlər:** Azərbaycan ədəbiyyatı, psixoloji nəsr, psixologizm, psixoloji təhlil.

**Ədəbiyyat**

1. Abbas A., (2008), Dolu, Bakı, Təhsil, 254 s.
2. Alışarlı S., (2003). Maestro, Bakı, 172 s.
3. Elaydi Ə.S., (2017). Müstəqillik dövrü Azərbaycan romanı, Bakı, Nurlan, 191 s.

## ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ РЫНКА МЕДИЦИНСКИХ УСЛУГ

**Алекперова Нигяр**
Университет Азербайджан
nigarmahmudzade19@gmail.com

Очевидно, теоретическое изучение рынка медицинских услуг, как и любого продукта в экономике, основывается на исследовании спроса на них и их предложения. Начнем с изучения факторов, влияющих на спрос потребителей на этом рынке.Прежде всего отметим, улучшение и восстановление здоровья требует определенных усилий и затрат ресурсов. Если рассуждать с точки зрения *домашних хозяйств*, прежде всего, прежде всего, это - время (потраченное на визиты к врачам, на упражнения и т.д.) и деньги (потраченные на врачи, лекарства, дорогие диеты и т.д.).

С точки зрения *государства*, это – земля, на которой необходимо строить медицинские учреждение, здания для соответствующих государственных институтов.Наконец, для *фирм*, занятых в этой отрасли – это и земля, и капитал, и трудовые ресурсы, которые необходимы для производства медицинской, техники, препаратов, и в конечном счете медицинских услуг.

Следуя канонической терминологии экономикса, обслуживание здоровья в результате затрат этих ресурсов мы будем называть производством здоровья. Таким образом, с точки зрения экономической теории медицинские услуги, это – продукция, производимая медицинским учреждениями.

1) Потребители предъявляют спрос не к здравоохранению, а к здоровью. Люди хотят здоровье, а медицинское обслуживание является ресурсом для его производства.
2) Потребители не просто пассивно покупают здоровье на рынке. В отличие от других продуктов, покупаемых ими, в случае со здоровьем они фактически участвуют в производстве собственного здоровья, тратя на это свое время, умственные ресурсы, иногда часть своего помещения и собственные трудовые ресурсы.